TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_____________ E.M.Ağayev
13 fevral 2023-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PROSTAMED** çeynəmə tabletlər
PROSTAMED

**Tərkibi**

*Təsiredici maddələr:* yağsızlaşdırılmış balqabaq toxumunun tozu 200 mq; yağsızlaşdırılmış balqabaq toxumu tozunun təmizlənmiş ekstraktı (5-10:1), ekstragent: natrium hidrokarbonat/xörək duzu/təmizlənmiş su (3/6, 1/90,9) – 100 mq; qızılsəbət bitkisinin quru ekstraktı (5-8:1), ekstragent: etanol 60 həcm %-i- 2,6 mq; ağcaqovaq yarpaqlarının quru ekstraktı (5-8:1), ekstragent: etanol 60 həcm %-i- 6,3 mq;

*Köməkçi maddələr:* laktoza monohidrat, кalsium hidrofosfat, kakao tozu, saxaroza, jelatin, 85%-li qliserin, povidon K25, yüksək dispersli silisium dioksid, talk.

**Təsviri**

Qabarıq səthə malik qəhvəyi, girdə tabletlərdir.

**Farmakoterapevtik qrupu.**

Prostat vəzinin xoşxassəli hiperplaziyası zamanı istifadə edilən vasitə.

**İstifadəsinə göstərişlər**

Sidik ifrazının çətinləşməsi, tez-tez sidik ifrazı, o cümlədən gecələr sidik ifrazı, sidik kisəsinin tam boşalmaması hissi (qalıq sidiyin olması), sidik ifrazına aradan qaldırılması mümkün olmayan çağırışlar. Kəskin və xroniki prostatit (kompleks terapiyanın tərkibində).

**Əks göstərişlər**

Təsiredici maddələrə, mürəkkəbçiçəklilər fəsiləsindən olan bitkilərə, salisilatlara və ya digər komponentlərdən hər hansı birinə qarşı yüksək həssaslıq.

Maye qəbulunun azaldılması tövsiyə olunan xəstəliklər, məsələn, ürək və ya böyrəklərin ağır xəstəlikləri.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**

Xəstəliyin uzunmüddətli simptomları zamanı və ya içlik vərəqədə göstərilməyən əlavə effektlər meydana çıxdıqda həkimlə məsləhətləşmək lazımdır. Sidikdə qanın aşkar edilməsi, sidif ifrazat yollarının infeksiyası, sidik ifrazı pozğunluqlarının kəskinləşməsi və ya kəskin ləngiməsi zamamı həkimlə məsləhətləşmək xüsusilə vacibdir.

Prostamedin uşaqlar və 18 yaşa qədər gənc insanlar tərəfindən qəbuluna aid kifayət qədər məlumat yoxdur. Buna görə də uşaqlar və 18 yaşa qədər gənc insanlar Prostamed preparatını qəbul etməməlidirlər.

Qalaktozaya qarşı dözümsüzlük, laktoza çatışmazlığı, fruktozaya qarşı dözümsüzlük, qlükoza-qalaktozanın malabsorbsiyası və ya saxaroza-izomaltoza çatışmazlığı kimi nadir irsi xəstəlikləri olan xəstələr Prostamed qəbul etməməlidirlər.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Hələlik Prostamedin digər dərman vasitələrilə qarşılıqlı təsiri öyrənilməmişdir.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə qəbulun təhlükəsizliyi öyrənilməmişdir. Buna görə hamilə və süd verən qadınlar üçün Prostamedin qəbulu tövsiyə edilmir.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Təsir etmir.

**İstifadə qaydası və dozası**
Böyüklər gündə 3 dəfə, hər dəfə 2-4 tablet qəbul etməlidirlər.
Tabletləri çeynəmək, üstündən kifayət miqdarda su qəbul etmək lazımdır (təxminən ¼-1 stəkan içməli su).
Preparatdan istifadənin müddəti 4 həftə təşkil edir.

**Əlavə təsirləri**
Tək-tək hallarda mədə pozğunluqları, ürəkbulanma, qusma və ishal baş verə bilər. Bundan başqa, allergik reaksiyalar, məsələn, səpgi, qaşınma, dil, ağız və udlağın selikli qişasının ödemi baş verə bilər. Hər-hansı əlavə reaksiya inkişaf etdikdə preparatdan istifadəni dayandırmaq və həkimə müraciət etmək lazımdır.

**Buraxılış forması**
Çeynəmə tabletlər.

60, 120 və ya 200 tablet, plastik tubda. 1 tub içlik-vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Yararlılıq müddəti**
3 il.
Açıldıqdan sonra saxlanma müddəti 3 aydır.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Saxlanma şəraiti**
25°C-dən yuxarı olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Dr. Gustav Klein GmbH & Co. KG.
Ştaynenfeld 3, 77736 Sell am Xarmersbax, Almaniya.
Steinenfeld 3, 77736 Zell am Harmersbach, Germany.

**Qeydiyyat vəsiqəsinin sahibi**
Alpen Pharma GmbH.
Ştaynenfeld 3, 77736 Sell am Xarmersbax, Almaniya.
Steinenfeld 3, 77736 Zell am Harmersbach, Germany.
Tel.: +49 (0) 7243 200 49 10.
Mail: ra.germany@alpenpharma.com